# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 21-22 (7395-7396) * 22 aprel - 01 may 2015-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik




**Avropa Oyunlarının keçirilməsinə az vaxt qalır. Biz Nazirlər Kabinetinin növbəti toplantısını ilin altı ayının yekunlarına həsr edəcəyik. Ona görə Avropa Oyunlarına qalan müddət ərzində bütün müvafiq qurumlar daha da fəal işləməlidir.**

**...Oyunlara dünyada çox böyük maraq var. Altmışa yaxın telekanal artıq müqavilə bağlayıb ki, bu Oyunları yayımlasın və beləliklə, "Bakı-2015" birinci Avropa Oyunları dünya ictimaiyyəti tərəfindən də izlənəcək. Yəni, son mərhələdəyik, ona görə şadam ki, çox qısa bir müddətdə - iki il yarım ərzində biz bu işin öhdəsindən gəldik. Əslində mən şübhə etmirdim, çünki bizim başladığımız bütün işlər uğurla yekunlaşır. Əminəm ki, Avropa Oyunları da böyük idman və dostluq bayramına çevriləcəkdir.**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Ulu Öndər müasir Azərbaycanın işıqlı sabahının etibarlı bünövrəsini yaradıb



**Rayon İcra Hakimiyyətinin konfrans zalında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib.**

Konfransı açan rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov xalqımızın böyük oğlu, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin Azərbaycan xalqı və Vətən qarşısında tarixi xidmətlərindən söhbət açıb. Qeyd olunub ki, Ulu Öndər ölkəmizi tarixin çətin və sərt sınaqlarından uğurla çıxarıb, müasir Azərbaycanın işıqlı sabahının etibarlı bünövrəsini yaradıb. Bu gün Prezident İlham Əliyev Heydər Əliyev siyasi xəttini uğurla davam etdirir. Bu siyasət nəticəsində Azərbaycan dünyanın sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilib.

Sonra YAP Tovuz rayon təşkilatının sədri Məzahir Bayramovun "Heydər Əliyev və Tovuz", Heydər Əliyev Mərkəzinin elmi işçisi Humay Aslanovanın "Ulu öndər Heydər Əliyev və gənclər strategiyası" barədə məruzələri dinlənilib.

Çıxışlarda Ümummilli Liderin zəngin və çoxşaxəli dövlətçilik fəaliyyətindən bəhs edilib.



## Akademik Zərifə Əliyevanın xatirəsi anılıb

Yeni Azərbaycan Partiyası Tovuz rayon təşkilatı Qadınlar Şurasının təşkilatçılığı ilə partiyanın qərargahında görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 92-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.

Tədbiri YAP Tovuz rayon təşkilatının Qadınlar Şurasının sədri Aybəniz Dəmirova açaraq akademik Zərifə Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafında və zənginləşdirilməsi sahəsində fəaliyyəti haqqında danışıb. Qeyd edilib ki, Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator alim olub.

Digər çıxışlarda da görkəmli oftalmoloq-alimin Azərbaycanın tibb elminə verdiyi töhfələrdən söz açılıb.

# Xeyirxahlıq, ağıl və qüdrət məktəbi



**O, yaxşı ana, vəfalı ömürgün yoldaşı, intellektual keyfiyyətləri cəm halda özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr verən həkim-oftalmoloq idi. Allahın öz bəndəsinə bəxş etdiyi bütün müsbət keyfiyyətləri özündə cəmləşdirən bir insan idi. Hamı onu belə tanıyırdı.**

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın dilbər guşəsi olan Naxçıvanın Şahtaxtı kəndində dünyaya göz açmışdır. Atası Əziz Məmmədkərim oğlu Əliyev və anası Leyla Cabbar qızı Abbasova əbədi və əzəli torpağımız olan İrəvan mahalında anadan olmuşdur. Azərbaycanlılara qarşı şüurlu surətdə həyata keçirilən soyqırım siyasəti Əziz Əliyevi 1918-ci ildə Sankt-Peterburqdakı təhsilini yarımçıq qoyub İrəvanda təqiblərə məruz qalan ailəsini Şahtaxtı kəndinə köçürməyə məcbur edir. Məhz burada Zərifə xanım dünyaya göz açır. 1923-cü ilin may ayında Əziz Əliyev Bakıya köçmək qərarına gəlir. Məqsəd tamamilə aydın idi. Ağır bir dövrdə İrəvan gimnaziyasını qızıl medalla bitirən, təhsildə böyük uğur əldə edən Əziz Əliyev yarımçıq qalmış təhsilini hökmən bitirməli idi. Bakıda o, universitetin tibb fakültəsini, sonra isə aspiranturanı bitirərək elmlər namizədi olur. Qısa bir zaman çərçivəsində o, doktorluq dissertasiyasını da müdafiə edir. 1929-cu ildə 32 yaşlı Əziz Əliyev Azərbaycan Səhiyyə Komissarlığında səhiyyə komissarının müavini vəzifəsində çalışır.

Zərifə Əziz qızı Əliyeva 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş, oranı bitirdikdən sonra Moskva şəhərində oftalmologiya üzrə Həkimləri Təkmilləşdirmə Mərkəzi İnstitutunda təhsilini davam etdirmişdi. 1949-cu ildən başlayaraq Azərbaycan Elmi Tədqiqat Oftalmologiya İnstitutunda işləmişdir.

Məhz həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. O zaman bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə isə nəinki oftalmologiya elmi üçün, hətta bütünlükdə Azərbaycan Respublikası üçün mühüm məsələyə çevrilmişdi.

Belə bir vəziyyətdə bu infeksion xəstəliyi, eləcə də onun müalicəsini ətraflı şəkildə öyrənən Zərifə xanım Əliyeva şəxsiyyətinə Azərbaycanın ehtiyacı var idi. Çünki həmin dövrdə dünya işığına həsrət qalan insanların çoxu məhz bu xəstəlikdən əziyyət çəkirdi. Beləcə Zərifə xanım nəinki Azərbaycanın böyük tibb müəssisələrinə, eləcə də respublikamızın ən çox traxoma xəstəliyi yayılmış rayonlarına getmiş, oftalmoloq-həkimlər qarşısında traxoma və başqa göz xəstəliklərinin müayinə və müalicəsinə dair məruzələr etmiş, əhali ilə çoxsaylı söhbətlər aparmışdır.

Praktik əməli həkim fəaliyyəti ilə yanaşı, Zərifə xanım elmi axtarışlarını davam etdirirdi. Onun ilk tədqiqatlarının mövzusu həyatdan götürülmüşdür. Özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr etmişdir.

Bu tədqiqatların nəticələri Zərifə xanım Əliyevanın 1960-cı ildə "Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsi"ndə mövzusunda müvəffəqiyyətlə müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil etmişdir.

1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva professional oftalmologiyanın məsələləri ilə ciddi məşğul oldu. Bu sahənin əhatə dairəsinin çox geniş olmasına baxmayaraq, gözün peşə xəstəlikləri probleminə dərin və çoxsahəli marağını Zərifə xanım Əliyeva bütün həyatı boyu itirməmişdir.

Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin, "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etdi. 1976-cı ildə Q. Helmqolts adına Moskva göz xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndirdilər.

Zərifə xanımın elmi cəsarəti onun elmi təvazökarlığı ilə üstüstə düşürdü. Hər iki insani keyfiyyət bir-biri ilə çox vaxt ziddiyyətdə olmasına baxmayaraq onlar Zərifə xanımın timsalında eynilik təşkil edirdi. Elmi nailiyyətlərinə görə o, Tibb Elmləri Akademiyasının mükafatına layiq görüləndə bütün səmimiyyəti ilə təəccübləndi: "Nə üçün məhz mənə? ". Zərifə xanım təkcə elm aləmində yox, həyatda da məhz bu cür səmimi idi.

Bütün bunlarla yanaşı, o həm də məktəb yaratmışdı. Onun əməkdaşlarına göstərdiyi səmimi münasibətdə, ümumiyyətlə, insanlara olan sevgisi öz əksini tapmışdı. Əslində onun heç iş otağı da yox idi. "O, mənim nəyimə lazımdır ki?" - deyərək tələbələrinin yanına yollanırdı. Zərifə xanım işinin gərginliyinə baxmayaraq ailəsinə necə də sevgi ilə, qayğı ilə yanaşdığını onu yaxından tanıyanlardan dəfələrlə eşitmişəm. Bu, heç şübhəsiz ki, hamını valeh edir, ona qarşı hörmət hissi aşılayır və eyni zamanda təəccübləndirirdi: "O, bütün bunlara necə nail olur?"

Zərifə xanım az yaşadı. Hətta qədim Romada belə 60 yaş ömrün kamillik dövrü sayılırdı. Zərifə xanım istedadı və həyat enerjisi ilə gələcəkdə çox işlər görə bilərdi! O, ölüm yatağında xəstəliyi ilə necə də mübarizə aparırdı! Müalicə ağır idi, ağrılı idi. İnsanı təkcə fiziki cəhətdən yox, həm də psixoloji cəhətdən yorub əldən salırdı. Fəqət nə mən, nə də mənim tanışlarım bir dəfə də olsun ondan kiçicik giley-güzar eşitmədik. Ömrünün sonuncu anına kimi o, həyatla, gələcək planlarla yaşayırdı. Görəsən, ölümün yaxınlaşdığını bilirdimi? Demək çətindir. Ağır xəstəliyə düçar olan, ölümünün yaxınlaşdığını hiss edən xəstələrin çoxu sanki vaxtından bir az da əvvəl həyatdan əlini üzür, ümidsizliyə qapılır, həyatla və insanlarla öz arasında gözə görünməyən qara bir pərdə çəkir. Burda isə vəziyyət bambaşqa idi. Bəlkə də Zərifə xanım çarəsiz xəstəliyə düçar olduğunu bilirdi, amma bunu ətrafdakılara hiss etdirməməyə çalışırdı.

1984-cü ildə tibb işçiləri günü qeyd olunurdu. Zərifə xanım həmin dövrdə dəhşətli xəstəliyi ilə mübarizə aparırdı və onun müalicəsi mümkün olmayan xəstəliyə tutulduğunu az adam bilirdi. Mən Rəyasət Heyətində əyləşmişdim. Birdən onun zalda ən çox sevdiyi bir professor həmkarı ilə (o da istedadlı bir qadın idi) yanaşı oturduğunu gördüm. Hər ikisi deyibgülür, bir-biri ilə ünsiyyətdən zövq alırdılar. Zərifə xanımda bu güc, həyat eşqi hardan idi?! Ölümünə iki həftə qalmış o uzaq bir ezamiyyətə hazırlaşırdı: "Aspirantlarıma kömək etmək lazımdır!" deyirdi.

Bəlkə də mən bu xatirələrimi başqa cür yazmalıydım. Bəlkə də bir həmkar kimi peşə, sənət çərçivəsindən kənara çıxmamalı, elm haqqında, işdən, uğurlardan, tələbələrindən söz salmalıydım. Amma belə alındı. Zərifə xanım qeyri-adi insan idi, başqa istedadlı şəxsiyyətlər kimi o da hər cəhətdən istedadlı idi. Mənim anlamımda isə hər şeydən öndə həyat istedadı və insanilik dayanır. Biz böyük insanı itirdik. Sağlığında da onun yeri görünürdü, ölümündən sonra da!..

Sonda bir tarixi haşiyəyə çıxmaq istərdim. Ölkələrin birində dövlət başçısı seçmək lazım gəlir. Bir çox mübahisələrdən və müzakirələrdən sonra üç namizəd qalır. Uzun müddət onların heç biri səslərin çoxunu toplaya bilmir. Bu zaman el ağsaqqalı üzünü toplaşanlara tutub deyir: "Bunlardan biri Ağıldır, biri Qüdrətdir, biri də Xeyirxah! İndi özünüz seçin! " Hamı Xeyirxaha səs verir. Bu mənada Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım deyərdim: O, həm Xeyirxah idi, həm Ağıllı idi, həm də Qüdrətli idi!



**Şəlalə Əbdülhəsənova,
Tovuz şəhər poliklinikasının
göz həkimi**

# Qürurverici xəbər...




Azərbaycan Yazıçılar Birliyinin üzvü olan dörd gənc yazarımız – Mehman Rasimoğlu, Gülnar Səma, Rübabə Sahib və Orxan Camal Prezident təqaüdünə layiq görülüb. Bu münasibətlə gənc yazarlarımızın timsalında bütövlükdə Tovuzluları rayonunu təbrik edirik. Çünki Tovuz rayonunun tarixində ilk dəfədir ki, gənclər Prezident təqaüdünə layiq görülüb. Ən böyük qeyri-adilik ondadır ki, Tovuz yeganə bölgədir ki, dörd yazarı birdən təqaüdə düşüb. Onları Tovuz yüksəltdi, onlar da Tovuzun adını yüksəltdilər. Hər birinə müvəffəqiyyətlər diləyir, uğurlarının davamlı olmasını arzu edirik.

## Tovuz Gül bayramına və "Bakı-2015" ilk Avropa Oyunlarının məşəlinin qarşılanmasına hazırlaşır

**Tovuzda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar Gül bayramına və "Bakı-2015" ilk Avropa Oyunlarının məşəlinin qarşılanma mərasiminə hazırlıq işləri sürətlə davam etdirilir.**

Tovuz şəhərindəki Heydər Əliyev adına mədəniyyət və istirahət parkında, ətraf ərazilərdə yeni gül kolları əkilir. Bundan əlavə, birinci Avropa Oyunlarının məşəlinin qarşılanma mərasiminə hazırlıq işləri çərçivəsində məşəlin keçəcəyi küçələrdə təmir və abadlıq işləri yekunlaşmaq üzrədir. Şəhərin Heydər Əliyev prospektində hasarların və qapıların rənglənməsi və cari təmir işləri aparılır.

## Yeni park-bulvar kompleksi...

Tovuz sakinləri bu yay istirahət üçün ətraf rayonlara, yaxud paytaxta üz tutmaya bilər. Çünki rayonda əhalinin istirahətini təmin edəcək park-bulvar salınır.

Aprelin ilk həftəsi Tovuzda havalar qeyri-sabit keçib, ancaq son vaxtlar günəşli günlərin sayı artıb. Bundan istifadə edən sakinlərdən kimisi övladını, kimisi də nəvəsini gətirərək onların parkda əylənməsinə çalışır. Xüsusilə, axşam saatlarında insan axını daha da sürətlənir. Tovuz çayının sağ sahilində salınan yeni bulvar kompleksi isə axşam saatlarında əraziyə gələnlərin zövqünü oxşayır. Burada quraşdırılan idman avadanlıqları isə əsasən gənclərin üreyincədir.



Qeyd edək ki, inşaasına ötən il başlanılan yeni bulvar kompleksində son tamamlanma işləri gedir.

Bu Park-bulvar kompleksi Heydər Əliyev adına Tovuz şəhər mədəniyyət və istirahət parkının tərkibindədir.

## Əkinçilər sahələrin suvarma suyu ilə təminatında problem yaşamayacaqlar

Yaz-yay aylarında əkinlərin normal suvarma suyu ilə təmin olunması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Tovuz Suvarma Sistemləri İdarəsindən bildiriblər ki, bu məqsədlə arx və kanalların su tutumluğunun normal vəziyyətə gətirilməsi üçün cari ilin yanvar-mart aylarında 167 min kubmetr lildən təmizləmə işləri görülüb. Rüb ərzində 22 hidrotexniki qurğuda və 8 hidrometrik postda cari təmir işləri həyata keçirilib. Bundan əlavə, üç pilləli nasos stansiyasında 1 nasos aqreqatı, 2 elektrik mühərriki, stansiyaya su gətirən kanal və istiqamətləndirici bənd əsaslı təmir olunub.

Görülən işlər nəticəsində yaz və yay aylarında əkinlərin normal suvarma suyu ilə təminatında heç bir problem yaşanmayacaq.

# Tovuzçay su anbarı istifadəyə hazırdır

## Çöllərin murazı dağlardan gəlir...

Rayonumuzun əkinçilərinə, bağ-bağat sahiblərinə şad xəbərimiz var. Çoxdan arzusunda olduğumuz Tovuzçay su anbarı istifadəyə hazır vəziyyətə gətirilib. Görülmüş işlərlə tanış olmaq, oxucularımıza məlumat vermək məqsədilə obyektdə olduq. Tikintiyə 2006-cı ildən sahə rəisi təyin edilən Rasim Mustafayev ilə görüşüb söhbət etdik.



**Qısa arayış:**

Rasim Mustafayev əslən Ağdam rayonunun Çəmənli kəndindəndir. Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunu 1979-cu ildə bitirib. Hərbi borcunu yerinə yetirdikdən sonra SSRİ-nin və Azərbaycanın bir sıra tikintilərində sahə rəisi işləyib. Ağstafada Poylu Dəmir yolu körpüsünün tikintisini vaxtında və keyfiyyətlə tikib istifadəyə verdiyinə görə Azərbaycan Respublikasının Fəxri dəmiryolçusu adına layiq görülmüşdür. Rasim Mustafayev 2006-cı ilin noyabr ayından Tovuza gəlmiş göl tikintisi ilə bərabər Azərbaycanda ən hündür körpünü də tikib istifadəyə vermişdir. Bu, yeni çəkilmiş İpək yolunun Tovuz çayı üstündən keçən 34 metr hündürlükdə körpüdür. Burada olduğu doqquz il ərzində yerli əhali ilə qaynayıb-qarışmış, xeyirdə-şərdə iştirakı ilə hörmət qazanmışdır. Qayğıkeş bir rəhbər kimi göl tikintisində çalışan 300 nəfərə qədər işçinin yanında böyük nüfuz qazanmışdır.

Su anbarının tikintisi barədə Rasim Mustafayev məlumat verir:

- Sovet dönəmində tikintisi yarımçıq qalan su anbarı Axınca və Tovuz çaylarından qidalanır. Su tutumu 20 milyon kubmetrdir. Çayın qarşısında salınmış bəndin uzunluğu 1340 metr, hündürlüyü 45 metrdir. Qəza sutullayıcısının həcmi saniyədə 250 kub sm-dir. Dib sutullayıcı saniyədə 125 kub m-dir. Su anbarının uzunluğu 2,6 km-dir. Ölü həcm, yeni lillənmə vaxtı 80 il vaxta hesablanmışdır. Anbar tam dolandan sonra 18 min 465 ha sahənin su təminatını yaxşılaşdıracaqdır. Anbardakı suyun təxminən 18 milyon kub metri sahələrin suvarılmasına istifadə ediləcəkdir.

Tikintidə bütün avadanlıqlar quraşdırılıb, enerji təchizatı və dizenfeksiya işləri qurtarıb, 18 metr yüksəklikdə su yığılıb ki, bu da hesablamalara görə 2,5 milyon kub m su etiyatına bərabərdir. Anbardan çəkilən su kanalları tam hazırdır. Aprelin 18-də Hunam arxını qidalandıran kanala su vurulmuşdur. Ağstafa kanalının qidalanması üçün diametri 1200 milli metr olan dəmir boru ilə anbardan kanala 7 km uzunluğunda dəmir boru çəkilmiş, aprelin 19-da birləşdirici boruya su vuraraq müvəffəqiyyətlə sınaqdan çıxarılmışdır.

Buludların gah seyrəlib, gah sıxlaşdığı bu yağmurlu aprel günündə Rasim müəllimin iş otağında söhbətləşirdik. Danışıqlarını qeyd etməkdə ikən ayağa qalxdı. Tar səsi otağa yayılanda əvvəlcə radioda çalındığını düşündüm. Qeydlərimi başa çatdıranda onu ayaq üstə, sinəsində tar, "Segah"ın sehirli aləmində gördüm. Bu, söhbətimizin başa çatmasına, bütün faktların qeyd edilməsinə işarə idi. Bəs niyə, "Segah?" Nə idi onun duyğulu qəlbini ehtiraza gətirən? Boya-başa çatdığı Ağdam rayonunun işğal altında olmasımı? Yoxsa ötən doqquz ildə qaynayıb-qarışdığı Tovuz sakinlərindən iş başa çatdığı üçün ayrılıb yeni təyinat yerinə gedəcəyimi? Kim bilir?

Maşına oturub qurğuları gəzdik. Tovuz çayını bəndə salıb ram edən tikinti ilə əyani tanış olduq. Bura Hunam arxını su ilə qidalandıracaq beton kanaldır. Dağ selinin göldə nisbətən durulmuş suyu gurultu ilə üzü Hunam düzünə sellənib axır. Bu da kanalın lap yanında inşa edilmiş nasos stansiyasıdır. Bu nasos stansiyası Ağ dağın suya illərdən bəri möhtac qalmış ərazilərini, habelə, Yuxarı Öysüzlü kəndinin dəmyə ərazilərini su ilə təmin edəcəkdir.

Bu isə bəndin lap aşağısında çayın suyunu, lazım gələrsə ötürmək üçün qapılardır.

Maşın dolama yol ilə fırlanıb bizi böyük bəndin üstündəki asfalt döşənmiş yola qaldırır. Üzü dağlara, Axınca və Tovuz çaylarının mənbədən gəlib qovuşduğu səmtə baxırıq "yığışan suyun "su" deyib dodağı cadar-cadar olmuş torpaqlara can verəcəyini düşünəndə ürəyimiz sərinlənir. Həmin dayandığımız yerdən bəndin yaxınlığında tikilmiş yardımcı bina anbara nəzarət etmək üçün bir sıra qurğuların yerləşdiyi otaqlardır. Bəndin üstündə dayanıb üzü Kür çayı istiqamətinə baxırıq. Buradan bəndin lap dibinə piyada enmək üçün pillələrlə düzədilmiş ətrafları məhəccərli yol görünür. Odur, çay vadisində şəhərin bir hissəsi, ondan sağda isə su anbarını Ağstafa kanalı ilə birləşdirən dəmir boru diqqəti cəlb edir.

Uzun müddətdir Tovuz çayında sellər daşanda bu ərazidən çayın digər tərəfinə keçmək mümkün deyildi. İndi iki sahili birləşdirən 1340 metr uzunluğunda bənd həm də asfalt döşənmiş, işıqlandırma sistemi ilə gecəni gündüzə bənzədən nəhəng bir körpünü xatırladır.

Tovuzçay su anbarında görülmüş işlərin bir hissəsinin haqqında məlumat verə bildik. Əsas odur ki, dağlar qoynunda yaradılmış bu su anbarı gecələr Aya, ulduzlara güzgü tutacaq, bu payız Bəsrə, Bağdad ellərinə köçən durnalar burada təhlükəsiz çimib dincələcək, qaqqıldaşa-qaqqıldaşa öz yollarına davam edəcəklər. Aran torpaqlarında əkinlərindən bol məhsul götürüb sevincdən əllərini öpən əkinçilərimiz deyəcəklər:

- Çöllərin murazı dağlardan gəlir. Var olsun yaradan əllər.

Bildiririk ki, yaxın vaxtlarda Tovuzçay su anbarının açılışı gözlənilir.

*Q.Alməmməd*

# "Ərzaq təhlükəsizliyi"ndə taxılçılıq ön mövqedə dayanır

**Bildiyimiz kimi taxılçılıq strateji sahə hesab olunur. Dənli bitkilərin istehsalını artırmaq, heyvandarlıq məhsullarının da artırılması deməkdir. Dənli btkilər heyvandarlıqda qüvvəli yem hesab olunur. Ona görə də ilbə-il dənli bitkilərin istehsalı artır.**

Region üzrə 2014-cü ilin payızında 39401 hektar taxıl əkilmiş və ondan sonra 31065 ha buğda sahəsi olmuşdur. Bu sahədə Tovuz rayonunda 2014-cü ilin payızında 2015-ci ilin məhsulu üçün 9812 ha sahədə taxıl əkilmiş, bundan 9471 ha buğda sahəsi olmuşdur. Hazırda fermerlər taxıl sahəsində becərmə işlərini mövsümə uyğun olaraq davam etdirlər. Sahələrdə 50 hektar yastı gənəciyə qarşı, 1000 ha sahədə isə taxıl böcəyinə qarşı mübarizə aparılmışdır. Hazırda sahələrdə alaq otlarına qarşı mübarizə aparlır. Hava şəraitinin yağmurlu keşməsi bu sahədə işimizi müəyyən qədər zəifləmişdir. Taxıl sahələrində alaq otlarına qarşı mübarizəni aparmaq üçün dərman preparatlarının dəyərinin 70% xərcini Dövlət öz üzərinə götürmüşdür. Və aqroservislərə kifayət qədər herbisidlər gətirilmişdir.



Həmin alaqların yarıdan çoxunu payızlıq və qışlaq otlaqlar təşkil edir ki, onların öz növbəsində daha çox yayınlanları:- lüdovik venəmiri, çöl qarğıdalı, adi qanqal, dil qanadan sığır gözü, şatərə, barımcı, sərt quramid və vələmirdi.

Yazlıq alaq bitkilərinin toxumları cücərən zaman payızlıq taxıllar kollama mərhələsində olu, və sürətlə inkişaf edərək alaqların körpə cücərtilərini boğur. Ona görədə yazlıq alaqlara payızlıq taxıl əkinlərində az rast gəlinir. Lakin, payızlıq taxıllar zəif inkişaf etdikcə, həmin sahələrdə mail 40 buğum, tatar sirkəni, adi pıtrak, tatar qarabaşağı, unluca unkişaf edirlər.

Payızlıq taxıl əkinlərində illik və çoxillik otlardan çöl sarmaşığı, bozalaq, sürünən kəkrə, tüksüz biyan, adi yağtikən, biyan daha çox yayılır.

Payızlıq taxıl əkinlərində bir illik iki ləpəli alaqlara qarşı 2.4 D amin duzu, 2.4 D Kattamin, 2M -4X, Ved Killer herbisidlərindən geniş istifadə olunur. Herbisidlə payızlıq taxılların kollamadan boruya çıxma fazasının başlalanmasına qədər olan müddətdə çillənməlidir. Həmin dövrdə herbisidlər alaq bitkilərin körpə cücərtilərini asanlıqla məhv edir. Herbisidlər havanın temputaturu 18-20 dərəcə S olduqda çilənən zaman onların təsiri daha yüksək olur. Taxıl əkinlərində bir illik ikiləpəli alaqları məhv etmək üçün təsiredici maddə hesabı ilə hektara 0.8-1.5 kq, 2.4D amin duzu, 0.8-1.5 kq 2.4 D kattamin herbisidləri tətbiq edilir.

Herbisidlər tətbiq edildikdə və ya 3-4 saat keçməmiş yağış düşdüyünə görə o, mənimsənilərək bitkiyə daxil ola bilmir. Ona görə bu halda çiləməni təkrar etmək lazım gəlir.

Çiləmə zamanı küləyin sürəti 5-6 m/san çox olduqda herbisidlərin sahədə bərabər çilənməsi mümkün olmur və onun səmərəsi azalır.

Fermerlərə tövsiyyəmiz odur ki, zərərvericilərə və alaq otlarına qarşı vaxtında mübarizə aparsınlar. Alaq otları kollama fazasına keçdikdən sonra vurulan herbisidin kifayət qədər faydası olmur. Hazırda ikinci suvarılma aparılır. Rayonun aran hissəsində ikinci suvarma başa çatmaq üzrədir. Havaların yağmurlu keçməsi nəticəsində torpaqda kifayət qədər rütubət toplanmışdır və bu bitkilərin inkişafı üçün münbit şərait yaranmışdır.

Tovuz Ərazi Kənd Təsərrüfatı idarəsinin mütəxəssisləri fermerlər arasında geniş maarifləndirmə işi aparır. Aqroservis lazımı miqdarda dərman preparatı gətirmişdir. Və servisdə kifayət qədər çiləmə aparatlar vardır. Fermerlərə məsləhət görürük ki, Aqroservisin xidmətindən istifadə etsinlər.

*C.Qəhrəmnov,*
*Tovuz ƏKTİ-nin rəisi*

# Ön sıralarda

**Uzun illər boyu internat məktəbləri deyəndə hamının ağlına imkansız ailələrin övladlarının, valideyn himayəsindən məhrum uşaqların oxuyub yaşadıqları, təhsilin keyfiyyətini olduqca aşağı səviyyədə olduğu məktəblər gəlirdi. Əslində bu bir həqiqət idi ki, internatlarda işləmək istəyən savadlı müəllimlər də olduqca az idi. Bu məktəblər təhsil ocağından çox bir növ sığınacaqları xatırladırdı.**




Bir vaxtlar Tovuzda fəaliyyət göstərən internat məktəbi də heç də başqalarından seçilmirdi. Lakin son illər Qovlar internat məktəbi uzun illər formalaşmış bu fikri alt-üst etdi. Qısa bir zamanda Qovlar şəhər qarışıq tipli tam orta internat məktəbi təkcə rayonun deyil, respublikanın ən yaxşı təlim-tədris müəssisələrindən birinə çevrilib. İstər tədrisin keyfiyyətində, istərsə də şagirdlərin təlim-tərbiyyəsində çox böyük nailiyyətlər əldə olunub. İndi internat deyəndə nəinki Qovlar şəhər sakinlərinin, eləcə də bütün tovuzluların ağlına rayonun ən yaxşı tədris müəssisələrindən biri gəlir. Bu günə gəlib çatmaq üçün isə kollektiv uzun bir yol keçmiş, böyük əmək sərf etmişdir.



Qovlar internat məktəbi 1961-ci ildə qəsəbə ərazisində, sovxozun kiçik bir binasında fəaliyyətə başlamışdır. Onda məktəbin maddi-texniki bazası olduqca zəif, təlim-tərbiyənin səviyyəsi olduqca aşağı idi. Hər kəs övladını, yaxın qohumunun valideynsiz uşaqlarını oraya əlacsız qalanda qoyurdu.

Yaxşı yadımdadır. 70-ci illərin əvvəllərində bizim məktəbdən də oraya bir neçə uşaq aparmışdılar. Ancaq onlar bir neçə aydan sonra qaçmış, geri qayıtmışdılar. Qayıtdıqdan sonra həmin uşaqlar özlərini bir qədər qəribə aparırdılar. Müəllimlərimiz deyirdilər ki, onlara internat belə təsir edib. Ancaq çox keçmədi ki, vəziyyət dəyişdi. Bir müddət sonra Qovlarda internat üçün 120 yerlik müasir tipli bina tikilib istifadəyə verildi. Yavaş-yavaş məktəbin ərazisi genişləndi, yaşıllıqlar salındı. Yeni korpuslar tikildi. Məktəbdə yaşayanlar üçün hər cür şərait yaradıldı. İndi internat məktəbi beş korpusdan ibarətdir. Sinif otaqları, fənn kabinələri müasir avadanlıqlar, dərs vəsaitləri ilə təmin olundu.

## Hər şeyi kadrlar həll edir

Bu sözləri söhbət zamanı məktəbin direktoru Eldar Hümbətov söylədi. O daha sonra bildirdi:

- Mən özüm də bu məktəbdə oxumuşam. Burada aldığım savad nəticəsində ali məktəbə qəbul olundum. Məktəbimizin bir vaxtlar məzunu olmuş insanlar indi ölkənin tanınmış ziyalılarıdır. Bu gün Qovlar şəhər qarışıq tipli tam orta internat orta məktəbində təhsil almaq istəyənlərin sayı olduqca çoxdur. Vaxtilə 120 nəfər üçün nəzərə tutulmuş məktəbdə bu gün 700 dən çox şagird təhsil alr. Çünki, məktəbimizdə elə bir müəllim və tərbiyəçi kollektivi formalaşıb ki, istər bilik və savadlarına, istərsə də digər keyfiyyətlərinə görə rayonun ziyalı elitasının önündə gedirlər.

## Qısa bir arayış

Hal-hazırda Qovlar qarışıq tipli internat məktəbində iki bölmə fəaliyyət göstərir: Umumtəhsil və xüsusi təhsil bölmələri. Umumtəhsil bölməsi 35 sinifdən ibarətdir və bu bölmədə 665 şagird təhsil alır. Bu şagirdlərin təlim-tərbiyəsi ilə 128 müəllim məşğul olur. Xüsusi təhsil bölməsində isə 10 sinifdə 51 şagird oxuyur. Bu bölmədə isə 34 müəllim çalışır. Məktəbin 96 şagird yerlik yataqxanası var. Yataqxanada yaşayan şagirdlərin yaxşı yaşamaları, təlim-tərbiyələri və təhsil almaları üçün hər cür şərait yaradılıb. Bütün bunlar tam dövlət təminatındadır. Bu şagirdlər geyim-gecim, yemək-içmək sarıdan heç bir korluq çəkmirlər.

## Təminat çox şey deməkdir

Ölkəmiz günü-gündən gücləndikcə təhsil də daima diqqət mərkəzində saxlanılır. Qovlar şəhər adı aldıqdan sonra bu qayğı daha açıq şəkildə özünü biruzə verir. Son vaxtlar məktəbin maddi-texniki və tədris bazası xeyli güclənmiş, yaxşılaşmışdır. Bütün bunları isə tədrisin keyfiyyətinə öz müsbət təsirini göstərmişdir.

Yuxarıda göstərilənlərin nəticəsi olaraq məktəbin inkişaf dinamikası son illər yüksələn xətt üzrə inkişaf edir. Əgər 2012-2013-cü tədris ilində məktəbin məzunlarından 10 nəfər yüksək balla ali məktəblərə qəbul olmuşdusa, ötən ilki tədris ilində bu rəqəm 15-ə çatmişdır. Bu isə o deməkdir ki, məktəbi bitirən məzunların 75 faizi tələbə adını qazana bimişdir.

Bir zamanlar internat məktəbina övladlarını vermək istəməyən valideynlər indi bu iş üçün hətta xahiş-minnət də edirlər. Məktəbdə Vüsalə Hüseynova, Solmaz Mürsəlova, Gülnaz Ələkbərova, Rəsul Rüstəmov, Mehparə Məmmədova, Nəsibə Zeynalova, Ruhiyyə Cəfərova, Gülnar Ələkbərova kimi savadlı müəllimər çalışır. Məhz onların əməyi sayəsində tədrisin keyfiyyəti ilbəil yüksəlir, məktəbin şöhrəti isə bütün bölgədə artır.

Məktəb kollektivinin tək bir arzusu var. Məktəbin bütün korpusları əsaslı təmir olsun, dərs şəraiti daha da yaxşılaşdırılsın. Məktəbin direktoru Eldar müəllimin dediyinə görə isə artıq bu məsələ rayon rəhbərliyinin diqqət mərkəzində saxlanılır. Yaxın vaxtlarda əsaslı təmir işləri öz həllini tapacaqdır.

*R.Çıraqlı*

# Allah Şeytana da lənət eləsin...

**Min üç yüz ildən artıqdır ki, "müsəlmanam"-deyən bir sıra millətlər həcc ziyarətinə gedir və şeytana daş atmaq mərasimi icra edirlər. Ancaq bu qədər müddətdə bir deyən yoxdur, ay müsəlmanlar, Şeytan yaşa dolub, o qədər qarıyıb-qartalıb ki, daha ona bap-balaca daş kar eləmir. Niyə ABŞ-dan və Qərb ölkələrindən öyrənmək istəmirsiniz? Görürsünüz, onlar Şeytanı daha qovub öz ölkələrindən kənara-müsəlman ölkələrinə çıxarır, sonra da daş yox ey, müasir raketlər atır, pilotsuz təyyarələrlə başına bomba yağdırırlar.**

Amma Şeytan da o Şeytan deyil ha! İndi o da müasirləşib. Necə? Vatikanda Papadan, Pentaqonda müasir hərb öyrətmənlərindən okul dərsi alıb. Ona görə də müəllimləri hansı müsəlman ölkəsinə barmaq tuşlayanda "bronjilteti"ni geyir, "bronetransportyor"una, yaxud pilotsuz uçaqına minib gedir o ölkəyə. Məsələn, İraka, Liviyaya, Əfqanıstana, Misirə, Suriyaya, Yəmənə və nə başınızı ağrıdım, təki müsəlman ölkəsi olsun.

Bir paraları da deyirlər ki, xata Nuh peyğəmbərin xatasıdır. Allah taala o tufanı ona görə törədirdi ki, öhdəsindən gələ bilmədiyi Şeytan sularda qərq olsun, bununla da bəşərin canı bilmərrə qurtarsın Şeytan adlı bu məxluqdan. Şeytan da usta tərpənib girdi Nuhun oğlanlarından birinin ürəyinə. Nuh nə qədər çağırdısa oğlu gəlmədi, çıxdı dağın başına. Oğlan tufanda qərq olmaq məqamında şeytan onun qəlbini tərk edib qaçdı Nuhun Kəştibanına-yəni gəmisinə. İndi də hoppanıb girdi başqa birisinin ürəyinə. Bununla da bəşərin evi yıxıldı. O vaxtdan bu vaxta Yer kürəsində qır-ha qır, dağıt-ha dağıtdır.

İndi də Avropa üzünü tutub Türkiyəyə ki, gərək nəyin varsa üstündən qara bir xətt çəkib bizim kimi oturub-durasan. İradəsini qəbul etdirmək üçün erməniní ayağa qaldırıb ki, ay erməni, onsuz da kim hara qışqıranda ora cumursan. Gedin, Birinci Dünya müharibəsi illərində onsuz da baş qarışıq idi. Kim nə bilir kimdən nə qədər ölüb-qalan var. Siz, "Dad, məni tutdular!"...qışqırıb bir "Qeybey" sivəni qoparın. Adını da qoyun "erməni soyqırımı". Gerisi ilə işiniz olmasın. Biz də şahid duraq ki, bəli, 1915-ci ilin 24 aprel günü Osmanlı türkləri erməniləri ucdantutma qırıb, yəni,"genosid","soyqırım" törədib. Sonra ərazi qoparmaq, kompensasiya almaq bizim işimizdir.

Bununla da dünya erməni lobbisi Vatikan "İOR" bankına 25 milyard dollar transfer etməsi əvəzində Papa da imanını danıb dedi ki, bəli, 1915-ci ildə Osmanlı türkləri ermənilərə qarşı soyqırım törədiblər. Özlərini sivil sayan Avropalıların parlamenti də erməni "genosidi"-ni tanıdığını bildirdi. Gəlin sual edək ki, ay Vatikan Papası, yaxud, ay Avropa Parlamenti, ayə, bu nə ikiüzlülükdür edirsiniz? Əgər ermənini belə çox istəyirdinizsə Birinci Dünya müharibəsini niyə başlayırdınız ki, erməni də qırılırdı?! Ay mədəni Avropa, bəs qudurub sahibini dişləyən iti siz necə müalicə edirsiniz?

On səkkizinci əsrdən üzü bəri "Böyük Ermənistan", "Dənizdən dənizə Böyük Ermənistan" ideyasını ermənilərin qəlbinə "üfürüb" qonşu xalqlar ilə ermənilər arasına nifaq salan, onları biri-birinə qırdıran siz deyilsiniz? İndi də uydurma "soyqırım"ın 100 illiyini qeyd etmək məsələsini ortaya atdınız. Gördünüz, dünya Türkün Canaqqala zəfərini qeyd etməyi sizin "Soyqırım" oyununuzdan üstün tutdu. 1915-ci ildə Canaqqala boğazı sizin boğazınızdan keçmədiyi kimi, indi də qondarma "Soyqırım" yubileyi erməni prezidentinin boğazından keçmədi. Odur ey, erməni xalqı Sərkisyanın istefasını tələb edir. Şeytan oyununun sonu, bax, belə olur ha!

Gördünüz AŞPA-da səsi şahə qalxan, Türkiyə burada yoxdur, mən varam, deyibən qardaş millətimizə dəstək verən Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev Çanaqqala zəferinin 100-cü il dönümündə də R.T.Ərdoğanın yanında idi.

Yalandan "yazıq" adı verdiyiniz erməni doğrudan da necə yazıq günə qaldı.

Cənab Papa, bəs demirsiniz cəmi bəşər Adəm və Həvva övladıdır? Dediyinizə inanırsınızsa bəs niyə 1918-ci ildə Bakıda, Şamaxıda, Qubada, 1992-ci ildə Xocalıda ermənilərin silahsız dinc xalqı uşaqdan böyüyə qətlə yetirdiyini-Azərbaycan türklərinə qarşı soyqırım törətdiklərini demirsiniz? Diliniz quruyar?!

Afrikaya gətirdiyiniz "Ərəb baharı"nda raket, bomla səsinin vahiməsindən dodaqları çatlayan uşaqların qönçə kimi solmasına nə deyirsiniz? Şeytanı Avropada itirib Afrikada-müsəlman aləmində axtarırsınız?

Ay müsəlmanlar, indi bildiniz ki, qarıyıb-qartımış ŞEYTANA fındıq boyda daş atmaqla kar aşmaz?

Nə bilim ey... Allah Şeytana da lənət eləsin, ona bapbalaca daş atmaq əvəzinə yep-yekə raket, bomba atanlara da...

*Q.Hümbətov*

*Zona Təcrübə Stansiyasında yeni sınaq*

# Sağlam məhsul uğrunda

**XX əsrdən XI əsrə keçən ekoloji təhlükə bəşəriyyəti sınağa çəkməkdədir. Bir acı həqiqət də var ki, bunu yaradan elə bəşərin özüdür. Dərmanlar xəstəlikləri müalicə etmir, zərərli viruslar insanları vahimədə saxlayır, bitkilər zərərvericilərin və xəstəliklərin təsirindən məhv olmaqla eyni vaxtda ərzaq qıtlığı yaranır.**

Öz yaratdıqlarının, elmi kəşflərinin əlində oyuncağa dönmüş bəşər indi əhalini xəstəliyi olmayan sağlam bitkilər hesabına ərzaqla təmin etmək üçün yeni ümumdünya -FAO təşkilatı yaradıb. Verilən layihəni Azərbaycanda da həyata keçirmək məqsədilə respublika Elmi Tədqiqat Tərəvəzçilik İnstitutunda biotexnologiya laboratoriyası yaradılmışdır. Bunun üçün külli miqdarda vəsait ayrılmış və lazımi avadanlıqlarla təmin edilmişdir. Biotexnologiya laboratoriyasının Baş məsləhətçisi Mənzər xanım Nəsibova ilə Tovuz Zona Təcrübə Stansiyasında görüşdük. İşin qızğın çağı olduğundan üzrxahlıq edib gəlişlərinin məqsədi barədə elə iş üstündə danışmasını xahiş etdik. Mənzər xanımın dediklərindən:

-Laboratoriyada əsas məqsədimiz respublikamızda yetişdirdiyimiz öz yerli kartof sortlarımız olan "Telman", "Əmiri", "Sevinc" sortlarını virusdan təmizləmək, həmçinin, bu sortlarla yanaşı, xaricdən alınmış sortları da tarlalarımızda sınaqdan keçirməkdir. Laboratoriyada bu işləri yerinə yetirmək üçün hər cür avadanlıq və vəsait var. Yuxarıda adı çəkilən yerli sortları sağlamlaşdırmaq üçün təpə merstemindən hüceyrə götürürük, həmin hüceyrə üçün qida mühiti hazırlayırıq, sonra sınaq (şəkil-1) şüşələrində əkirik. Altı ay müddətində bu merstemdən bitki əmələ gəlir, 5-6 yarpaq açandan sonra biz yenidən qələmləmə aparırıq. Qələmləmənin qidası əvvəlkindən fərqlənir. Onları müəyyən qida mühitinə əkirik.

Onu məxsusi ayrılmış qidalarla təmin edirik. Şitil dipçəklərə əkilir. Onların yerlə əlaqəsi kəsilir, istixanalara yığılır ki, torpaqdan virus götürməsin. Həmin bitkilərdən noxud boyda mini yumrular alınır. Sonra bunu yenidən torpağa əkirik. Üçüncü məhsulda yumrular artıq normal həddə çatır. Bu isə sağlam-bütün viruslardan kənar məhsul deməkdir.

Bildiyimiz kimi, respublikada əhalini təmin etmək üçün 200 min ton kartof məhsulu becərmək lazımdır. Bundan ötrü isə sağlam toxum lazımdır. Laboratoriyamızın fəaliyyətə başladığının birinci ilidir. Təcrübə məqsədi daşıyır. Toxumları yetişdirəndən sonra bu işləri laboratoriyada genişləndirəcəyik. Əhalimizi qısa müddətdə sağlam məhsul ilə təmin edəcəyik. Biz bunun üçün ilk məhsulları virusların nisbətən az olduğu dağ şəratində əkəcəyik. İkinci məhsulu aran torpağına gətirməklə şəraitə uyğunlaşdıracaq, dağ şəraitində yenə toxumluq əkəcəyik. On dörd belə kartof sortumuz var. Onlar Gədəbəy və Tovuzun dağlıq ərazisində sınaqdan çıxarılır. Şəmkirin Muxtariyyə, Cəlilabadın Göytəpə kəndlərində sınaqdan çıxarılır. Bu sortlarda məhsuldarlıq da yüksəkdir. Keçən il aldığımız məhsula görə hər hektardan 45 ton məhsuldarlığa nail olmaq mümkündür. Gələcəkdə isə bu məhsuldarlıq artırılacaqdır.

Laboratoriyamıza əsasən gəncləri qəbul edirik.

Budur, laborantlarımız Nərmin Babacanova və Günel Alıyeva sınaq şüşələrindəki dipçəyə əkiləcək gövdəni nümayiş etdirirlər.

Mənim göstərdiyim bu sellilofan dipçəklərdə isə əkilmiş gövdələri görürsünüz.

- Mənzər xanım, başladığınız mötəbər işdə laboratoriyanızın əməkdaşlarına müvəffəqiyyət arzulayırıq. Xeyirli olsun.

- Sağ olun.

***"Tovuz"***

# Halal çörək

***Halallıq qədimdən xalqımıza məxsus bir xarakter xüsusiyyətidir. Bunu ölkəmizə gəlmiş bir sıra dünya səyyahları da qeyd etmişlər. Əfsus ki bu ali keyfiyyət getdikcə öz mahiyyətini itirmiş, adamların xarakterləri aşınaraq bir sıra ali keyfiyyətlər kimi, halallıq da ən aşağı səviyyədə qərarlaşmışdır. Baxın, aldığımız şokalad üzü bəzədilmiş yer fındığı çıxır. Dozasına haram qatılan dərmanlar xəstəni müalicə etmir və ya bitki zərərvericilərini qırmır. Haramlıq o yerə çatıb ki, kəndlərdə hətta zəhərlənib ölən, ya da xəndəklərə atılmış mal-qara cəsədlərindən kolbasalar hazırlanır. Bəzilərinə isə "halal kolbasa" adı verilir.***

***Bir də var halal çörək. Əvvəllər halal çörək deyəndə zəhmətlə qazanılmış çörək anlayışı başa düşülürdü. İndi isə halal çörək deyəndə başqa qatışıqlardan xali olan bir kütlə ağzımızın dadını, mədəmizin sakitliyini pozub bizi həkimlərə və haram dərmanlara möhtac etməyən çörək nəzərdə tutulur. Qəribədir, bişmiş xörəyə qatıb pişiyin qabına qoyduğun "çörək" adlı haram məhsulu allahın bu gözəl heyvanı belə yemir, üzünün xörəyini yalayıb kənara çəkilir. Düşünürsən: Öz həmcinsi tərəfindən sağlamlığı zərrə-zərrə oğurlanan yazıq insan!...***

***Biz heç də hamını günahlandırmaq fikrində deyilik.***

***Mağazalarda Tovuz çörəyi, Dondar Quşçu dəmir yolu keçidində bişən çörək axtaranlara, ad ilə soraq edənlərə tez-tez rast gəlirik. Bu yazımızda Seyid Mamoyun çörəyindən danışmaq fikrindəyik. Çünki bu adı çörək satılan mağazalarda tez-tez eşidirik. Qısa arayış:***

***Seyid Mamoy ağa-Mamoy Əli oğlu Kazımov 1949-cu ildə Tovuz şəhərində anadan olub. 1971-ci ildə Azərbaycan Dövlət Neft-Kimya İnstitutunun texnologiya fakültəsini bitirib. Respublika Elmlər Akademiyasında, Bakı Şin zavodunda, nəhayət, Bakıdakı 4 saylı çörək zavodunda texnoloq vəzifəsində işləyib. O, 1988-ci ildə ailəsi ilə Tovuza köçüb, avadanlıqlar gətirərək çörək sexi açıb.***

***Bu günlərdə çörək bişirmə sahəsində böyük təcrübəsi olan Mamoy ağa ilə görüşüb söhbət etdik.***



**- Mamoy ağa, ali təhsilli mütəxəssis üçün o zaman iş yeri çox idi. Bəs niyə çörəkbişirmə sexi yaratmaq istədiniz?**

- Ailəli idim. Mütləq işləmək lazım idi. Ancaq hara üz tutdumsa "yox" cavabı aldım. Sonralar dərk etdim ki, burada iş bacarığı yox, başqa amillər rol oynayırmış.

**- Tovuzda böyük çörək kombinatı fəaliyyət göstərirdi. Sizin yaratdığınız kiçik sexin məhsulu böyük kombinatın təsirindən necə çıxıb alıcı toplaya bildi?**

- Bayaq halal çörəkdən danışdıq. Alıcılar da bunu axtarırlar. Bir-iki dəfə sınayan kimi seçim edirlər. Beləliklə də hamı bir-birinə çatdırır. Bizim ilk vaxtdan başladığımız halallıq müştərilərimizin sayının artmasına səbəb oldu. Çox sexlərin məhsullarında görmüşəm, aşağı çeşidli unu azca qatmaqla yuxarı-əla növ unun çörəyi kimi müştəriyə sırıyırlar. Bəzi sexlərin çörəyinə mayanın çox qarışdırılması ilə harama yol verirlər. Məsələn, 50 kiloqram unun xəmirinə qatılacaq mayanı 20-30 kiloqram unun xəmirinə qatmaqla çörəyin çəkisindən oğurlayıb kütləsini köpdürmə yolu ilə böyüdürlər. Hər şeydə belədir, mayaya qarışan haram halalı da özü ilə aparır. Müştərinin aldığı çörəkdən maya kütləsi çıxırsa ikinci dəfə o sexin çörəyini alarmı? Əlbəttə yox. Bİr də, yeri gəlmişkən, hər bir işdə ixtisas, peşə sahibi olmaq əvvəlinci məsələdir. Gərək sahibkar, heç olmasa usta dediyimiz çörəkçi gördüyü işin texnolgiyasını bilsin. Mən texnoloq ixtisası almaqdan, çörək zavodu kimi nəhəng bir müəssisədə bunu əməli sürətdə həyata keçirməkdən başqa, öz biliklərimi artırmaq məqsədilə Moskvada Umumittifaq Yeyinti Sənaye İnstitutunun Çörək və qənnadı məmulatlarının texnologiyası fakültəsini də qiyabi yolla bitirdim. Yaxşı məhsul istehsalı üçün Moskvadan elektriklə işləyən çörək sobaları gətirib sexdə qurulmasına nail oldum.

**- Ziddiyyətlər kəskinləşdi. Azərbaycan siyasi müstəqilliyini bərpa etdi. İqtisadiyyatımız öləzidi. Çörəksizlik illəri başladı. Seyid Mamoy ağa onda nə etdi?**

- O vaxt ölkəmiz çətin vəziyyətdə idi. Sovet ölkəsi dağılmış, iqtisadi münasibətlər pozulmuşdu. Bakıdan vaqonlarda gətirilən çörək cüzi miqdar idi. Hardansa un əldə edib camaatımızı vəziyyətdən çıxarmağa çalışırdıq. Onda seximizin məhsulları üçün kifayət qədər müştəri topladıq. Ancaq atalardan qalma bir söz həyat şüarımız oldu. Ulu babalarımız dəyirmana və çörək bişirilən yerə halallıq, bərəkət ocağı demişlər. Biz bu sözdən gələn adətimizi o gündən indiyə kimi qoruyub saxlayırıq.

**- Mamoy ağa, xalqın o çətin vaxtında dəyirmanlarımız haqqında xoşagəlməz söhbətlər gəzirdi. Deyirdilər o bərəkət ocağında unun müəyyən qatışıqları olur. Bəs haram undan halal çörək bişirmək mümkündürmü?**

- Mən, bilmədən belə, o haram çörəyi bişirsəm birinci növbədə öz ocağıma haram qatmış olaram. Atam Qarabağın sınaqlı seyidlərindəndir. Anam Güllü Həbib qızı Aldədə övladlarındandır. Belə bir ailənin övladı harama əl uzatmaz. Bu, mənə gen və süd ilə keçmişdir. Odur ki, əhatə dairəm də bir qədər genişdir. Üz tutduğum qapıları qarşımda sanki Allah özü açır. O ağır günlərdə də Gəncəyə və Bakıya gedib halal un gətirdim. Yaratdığım bərəkət ocağına üz tutanlara halal undan halal çörək bişirib verdim. Harama öyrənmişlər isə bu gün də haramlıqla məşğuldurlar. Allaha min şükürlər olsun, ölkədə çörək bolluğu hava-su bolluğu qədərdir. Ancaq seximizdə bişirilən çörəyin müştəriləri gündən-günə artıq. Satış nöqtələrindən teztez zəng edir, mağazaların da bizim məhsullarını görmək istəyirlər. Toy, yas mərasimlərində də sifarişimiz olur. Şadlıq sarayları da müraciət edirlər. Əla növ undan "Azərbaycan çörəyi", ikinci növ undan bişirilən adi çörək, onlardan çəki və həcmcə iri olan düzbucaqlı çörək alıcılar tərəfindən çox bəyənilir. Əlbəttə, hər bir sahibkar bir neçə ailə üçün də dolanışıq mənbəyi yaradır. Seximizdə çalışan altı nəfər öz ailəsinin dolanışığı üçün bu bərəkət ocağına and içib minnətdarlıq edir. Usta Şəfiqə Həsənova, Xatın Həsənova, xəmiryoğuran dəzgahın ustası Eldəniz Əmiraslanov, işçi Rübabə Tağıyeva və başqaları öz işlərini məharətlə icra edirlər.

İki sınaqlı ocağın adını və müqəddəsliyini xarakterində qoruyub gələcəyə ötürən Seyid Mamoy ağa-Mamoy Əli oğlu Kazımov öz ailəsinə də həmişə halal çörək yedirmiş, halal tərbiyə vermişdir. Üç övladın atası, altı nəvənin babasıdır. Oğlu Həbib Azərbaycan Dövlət Bədən Tərbiyə İnstitutunun şahmat fakültəsini bitirmiş, polis sistemində çalışmışdır. Həbib Qarabağ müharibəsinin veteranıdır. Goranboy, Çaykənd döyüşlərində vuruşmuşdur. İndi pensiyada fərdi əməklə məşğuldur. Qızı Mehriban Bakı Dövlət Universitetinin biologiya fakültəsini bitirib Azərbaycan Dövlət Tibb Universitetində çalışır. Gülnarə isə həkimdir.

Bəli, mayası halal olanda insan da, onun ərsəyə gətirdiyi məhsullar da halal olur. Zəmanəmizdə isə belə halallara az təsadüf edilir. Onların qədrini bilmək çox vacibdir.

***Q.Hümbətov***



Telman Axıncı

***Telman Axıncı-Telman Kamal oğlu Səmədov 1951-ci ildə Yekallar kəndində anadan olub. Bakı Plan-uçot texnikumunu bitirib. Ağamalı oğlu sovxozunda mühasib köməkçisi işləyib.***

***Şeir yazmaqla da məşğul olur. Onun "Axıncının səsiyəm" şeirlər kitabı 2013-cü ildə nəşr edilib.***

***Kitabda toplanılan şeirlərin əsas mövzusu vətənpərvərlik, təbiət lövhələri, gənclərin sevgi duyğularından bəhs edir. "Boz təpə" poeması hərbi vətənpərvərlik mövzusuna həsr edilib. Şahidi olduğu hadisələr şair tərəfindən qələmə alınıb.***

## Vətən burdan başlayır

Sıra dağlar qoynunda
Ağır bir el yaşayır.
Bilməyən də qoy bilsin,
Vətən burdan başlayır.

Yanır Zərdüşt ocağı,
Cənnətdi hər bucağı.
Başa salın uşağı
Vətən burdan başlayır.

Göyçə mahalım mənim,
İrəvan xalım mənim.
Eşit, Borçalım mənim,
Vətən burdan başlayır.

Zəngəzurda izim var,
Qürbətdə Təbrizim var,
Dərbəndim, Şahbuzum var,
Vətən burdan başlayır.

Mili var, Muğanı var,
Şəkisi, Şirvanı var,
Burda şəhid qanı var,
Vətən burdan başlayır.

## Qurban olum

Yurdum güllü-çiçəkli,
Gülümə qurban olum.
Xoş arzulu, diləkli,
Elimə qurban olum.

Laylam kaman, tar üstə,
Sazım ötür, ahəstə.
Ayım gəlir ay üstə,
İlimə qurban olum.

Vurulmuşam cahana,
Bütün Azərbaycana.
Qarabağa, Şirvana,
Milimə qurban olum.

Ana torpağım, güllən,
Qəm çəkərmi sevilən?!
Vətən, yolunda gələn
Ölümə qurban olum.

Axıncı xoş avazlı,
Şirin nəğməli, sazlı,
Bayatılı, cinaslı
Dilimə qurban olum.

## Ömürlük üstündə qalacaq bu ad

Sən məni tək qoyub hara gedirsən?
Bir gün sən özün də təklənəcəksən.
Qəm-kədər qoynuna alacaq səni,
Həsrətdən, möhnətdən yüklənəcəksən.

Şübhəli yanaşıb gümanlarına,
Haq deyə bilməzsən yalanlarına.
Cavab tapmayanda suallarına,
"Yanıq Kərəmi"yə köklənəcəksən.

Peşiman libası geydirib bir gün,
İttiham edəcək səni öz sevgin.
Sevən ürəklərdən olanda sürgün,
Köhnə divar kimi söküləcəksən.

Göz yaşın öpsə də yanaqlarını,
Yuya bilməyəcəksən günahlarını.
Mənsiz qarşılayıb sabahlarını,
Daim qəhərlənib kövrələcəksən.

Səni pəncəsində sıxanda həyat,
Telman Axıncıdan diləmə imdad.
Ömürlük üstündə qalacaq bu ad,
Hər gün ləkələnib, çirklənəcəksən.

## Anamın

And verirəm toxunmayın heç nəyə,
Bu otaqda qoxusu var anamın.
Ölənəcən qulağımdan getməyən
Laylası var, oxusu var anamın.

Ömrünü sürübən evdə-eşikdə,
Sübhə kimi dayanıbdı keşikdə.
Mışıl-mışıl mən yatdığım beşikdə,
Bayatılı yuxusu var anamın.

Axıncı, çərxi-zaman oynunda,
Ata haqqı, ana haqqı boynunda.
Uyuyubdu ANA Vətən qoynunda,
Daha nədən qorxusu var anamın.

## Vətən, sənin qucağında

Göz açmışam bu dünyaya,
Vətən, sənin qucağında.
Lay-lay deyib anam mənə
Vətən, sənin qucağında.

Dağlarında dolaşmışam,
Gah yorulub, gah çaşmışam.
Neçə cığır, yol açmışam,
Vətən, sənin qucağında.

Payız kövrək, qış da gözəl,
Torpaq əziz, daş da gözəl.
Çatsam doxsan yaş da gözəl,
Vətən, sənin qucağında.

Bəlkə ömür az olacaq,
Qış dolanıb yaz olacaq.
Məzarım da qazılacaq,
Vətən, sənin qucağında.

Telman deməz mən şairəm,
Şairlərə baş əyirəm.
Xoşbəxtəm ki, yaşayıram,
Vətən, sənin qucağında.

## İtirdiyimiz

Sən ey keçmişinə baxmayan insan,
Elə düşünmə ki, dəyişib zaman.
Yaman dəyişmişik özümüz, yaman
Bizi aldatmırmı hər gördüyümüz?
Qazancdan çox olur itirdiyimiz.

Yenilik yaxşıdı, inkişaf əla!
Gərək cavabın da olsun suala.
Sən bilən "sığarmı cida çuvala"?
Bar vermir becərib bitirdiyimiz,
Qazancdan çox olur itirdiyimiz.

Nənəm nağıl demir, nağıllaşıbdı,
Babam dastan bilmir, ahıllaşıbdı.
Gör millət nə qədər fağırlaşıbdı,
Üzü dönük çıxır "Yar" dediyimiz,
Qazancdan çox olur itirdiyimiz.

Axıncı, sözünə kim qulaq asır,
Səndədi, məndədi, ondadı taqsır.
Bax onda "Qazancda mayanı basır"
Uçur başımıza öz tikdiyimiz,
Qazancdan çox olur itirdiyimiz.



✍ **Orxan Camal,**
**Prezident təqaüdçüsü**

Əslən Tovuzdan olan Orxan Sadəddin oğlu Əfəndiyev (Orxan Camal) 1985-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2003-cü ildə 200 saylı orta məktəbi bitirmişdir. Elə həmin ildə Azərbaycan Beynəlxalq Universitetinin hüquqşünaslıq fakültəsinə daxil olmuş, 2007-ci ildə oranı bitirmişdir.

2006-cı ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. 2009-cu ilin dekabrında keçirilən bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının üzvü olaraq iştirak etmiş və Binəqədi rayon Binəqədi Bələdiyyəsinə üzv seçilmişdir. Orada "Gənclər, idman və turizm daimi komissiyası"nın sədr müavini vəzifəsində çalışmışdır.

Ədəbiyyata on dörd yaşında gəlmişdir. Elə ilk kitabı da həmin ildə, 1999-cu ildə çap olunmuşdur. Şeirlərinə bəstələnmiş mahnılardan ibarət bir diskin, beş şeir kitabının müəllifidir. 2009-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

2007-ci ildə sözlərinə bəstələnmiş iki mahnı "İlin mahnısı" mükafatına layiq görülüb.

## Allah

Bir vəhdət içində qurub aləmləri Allah,
Bir gərdişə nisbət yaradıb cəmləri Allah.

Yer qurmasa qurmaz tavan insan əli, məlum,
Xəlq eyləmiş əvvəl göyü, sonra yeri Allah.

Varlıq bir elmdir, bəşər idrakına sığmaz,
Aciz qula açmaz ulu hikmətləri Allah!

Sərhəddi aşıb keçməyə ağlın gücü yetməz,
Aşkarlara sərhəd yaradıb sirləri Allah.

Yetməz mənə, yetməz mənə zahirləri görmək,
Vicdanıma göstərməsə batinləri Allah!

İnsan günəş altında işıqsız dolanınca,
Göndərdi günəştək yerə Peyğəmbəri Allah!

Kor gözlər açılsın deyə parlatdı günəştək,
İslam səhərində o böyük sərvəri Allah!

Bir insana, bir nəslə imansız gələcək yox,
Bax keçmişə, gör xar elədi kimləri Allah!

Ey Haqqı danan, bir külə döndərməyə qadir,
Bir həmlədə, atəş saçan əjdərləri Allah!..

Ya Rəbb! Sənə Orxan Camalın şükrü tükənməz,
Yazmaz Vətənin qəlbinə hər şairi Allah!

## Bəxtəvər oldum

Sevdim səni... dünyadan, inan, bixəbər oldum,
Sayrışdı şəfəqlər, yenə aydın səhər oldum.
Eşqinlə işıqlandı könül, oldu çıraqban,
Viranə idim mən, dönüb abad şəhər oldum.
Görsün bütün aləm nə böyük xariqələr var! -
Torpaqda idim mən, ucalıb zirvələr oldum!..
Xoş vəslini şərbət kimi içdim qədəhindən,
Sərxoş kimi fırlandı başım, birtəhər oldum.
Şaddır gülüşün, çün sənin Orxan Camalın var,
Yar, sən də mənimsən... sevinib, bəxtəvər oldum!

## Gözəlim

Qoyma eşq xanəmizə qəm yeli dolsun, gözəlim
Qoyma vəslin açılan gülləri solsun, gözəlim!
Eşqimiz bir qıza bənzər, üzü - Ay, zülfü qara,
Qoyma firqət küləyi zülfünü yolsun, gözəlim!
Dar ürəklərdə yanıb-parlamaz eşqin günəşi, -
Ürəyin göy üzütək qoy geniş olsun, gözəlim!
Gül bir az, qoy açılan qönçəyə dönsün dodağın,
Bu könül bülbül olub, üstünə qonsun, gözəlim!
Unudulmaz, yaşayar sözləri Orxan Camalın,
Bu da bir sözdü, dedim, -
xatirə qalsın, gözəlim!

## Ana

Ana kimdir? O gözəlin qoynu sıcaq, özü doğma,
Eşqi doğma, ruhu doğma, səsi doğma, üzü doğma!
Bircə zərrə əskik etməz sevgisini, şəfqətini,
Bircə kərə üzə vurmaz bir ömürlük zəhmətini.
Ana qəlbi - od butası, ana qəlbi yanan olar! -
Dərdin varsa anan çəkər, başqaları yalan olar!..
Çox rast oldum öz eşqinə dönük çıxan gözəllərə,
Anamınsa məhəbbəti azalmadı bircə zərrə.
Ana qıymaz bir ocaqda barmağıyın ucu yana,
Səndən ötrü kirpiyiylə od götürər fəqət ana!
Səndən ötrü öz bağrını pərvanətək çırpar oda,
Ana qədər qayğı çəkən başqa kim var bu dünyada?!
Qayğılarla keçər zaman, keçər ömür... o, qocalar, -
Qocaldıqca fağırlaşar, gücsüzləşər, fikrə dalar,
Qocaldıqca asta gəzər, addımları aram olar...
Ana haqqı itirənə ana haqqı haram olar!
Ana kimdir, bu gerçəyi unutmayaq bircə anlıq! -
Analıqdır bu dünyada ən birinci qəhrəmanlıq!

## Prezident təqaüdçüsü aşıq Mahmud Məmmədovun 80 illik yubileyi

# Dövlətin və xalqın böyük qiymət verdiyi ustad aşıq



**«Sağlığında qiymət verin insanlara» - deyirdi xalq şairi Cabir Novruz. Böyük həqiqətə, insani dəyərlərə verilən qədir-qiymətə söykənib bu kəlam. Aşıq Mahmud Məmmədova sağlığında qiymət verilməsi, ustadın qədir-qiymətinin bilinməsi olduqca müsbət bir haldır, dəyərli işdir. Azərbaycan aşıq sənətinin görkəmli təmsilçisi, Göyçə aşıq mühitinin qüdrətli nümayəndəsi, aşıq İmran Həsənov məktəbinin layiqli davamçısı aşıq Mahmud Məmmədovun 80 yaşı tamam oldu.**

Azərbaycan dövlətinin sayıb-seçdiyi, dəyər verdiyi ustad aşıq əməkdar mədəniyyət işçisi fəxri adını alıb, saysız orden-medal, mükafatlar qazanıb, Prezident təqaüdçüsüdür.

Aprelin 28-də Azərbaycan aşıq sənətinin tanınan nümayəndəsi, Azərbaycanın qocaman aşıqlarından olan Mahmud Məmmədovun 80 illik yubiley tədbiri Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında qeyd edildi.

Məlumat üçün deyək ki, Mahmud Qasım oğlu Məmmədov 1935-ci ildə Göyçə mahalının Ağbulaq kəndində dünyaya göz açıb. 1946-cı ildə ailəsilə birlikdə Tovuz rayonunun Bozalqanlı kəndinə köçüb və sonrakı həyat fəaliyyəti bu diyarla bağlı olub. Onu da bildirək ki, 1957-ci ildən başlayaraq ustadı İmran Həsənov, Əkbər Cəfərov, balaban ustası Abbas İsmayılovla birlikdə dövlət tədbirlərində iştirak etməyə başlayıb, tez-tez tədbirlərə, yığıncaqlara dəvət olunub. Elə həmin ildə gənc aşıq Bakıda keçirilən folklor festivalında birinci dərəcəli diploma layiq görülüb. Bir müddət sonra isə ümumittifaq və beynəlxalq festivallarında laureat adını qazanıb. Ustad aşıq Mahmud Məmmədovun Azərbaycan teleradiosundakı mütəmadi çıxış və konsertləri, xüsusən də Azərbaycan Telefilm Birliyinin tamaşaçılara təqdim etdiyi «Abbas-Gülgəz» dastanı ona böyük şöhrət qazandırıb. O, eyni zamanda, bir müddət AMEA-nın Folklor İnstitutunda çalışıb, burada aşıq sənətinin tədqiq olunmasında böyük əmək sərf edib.

Məlumatımıza görə, Aşıq Mahmud 1992-ci ildə Türkiyənin Konya şəhərində keçirilən folklor festivalında Atatürk qızıl medalına layiq görülüb. Prezident təqaüdçüsüdür, Azərbaycan Aşıqlar Birliyinin İdarə Heyətinin üzvüdür.

Aşıq Mahmudun poetik yaradıcılığı da çox dəyərlidir. Ustad aşığın 2007-ci ildə «Hörmət olan yerdə, məhəbbət olar», 2011-ci ildə isə «Allah qəlbə görə verir» adlı şeirlər kitabları çap olunub. Bu kitablarda aşığın müxtəlif illərdə qələmə aldığı divanilər, gəraylılar, qoşmalar, deyişmələr, müxəmməslər, xatirə-rəvayətlər və aşığa həsr olunan şeirlər toplanıb.

Aşıq Mahmud Məmmədovun Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında keçirilən 80 illik yubileyi Mədəniyyət və Turizm Nazirliyi və Aşıqlar Birliyinin birgə təşkilatçılığı ilə keçirilib. Aşıq Mahmudun yubileyi deyərdim ki, son illər keçirilən maraqlı tədbirlər silsiləsinə aiddir. Əvvəlcədən onu qeyd edək ki, Mahnı Teatrının konsert salonu tam olaraq dolmuşdu və hətta mərasimi ayaq üstə izləyənlər də vardı. Əlbəttə, bu, ustad aşığa verilən böyük dəyər olmaqla yanaşı, həm də Azərbaycan aşıq sənətinə göstərilən ehtiram və hörmətin əlaməti idi. Aşıq Mahmud Məmmədovun 80 illik yubiley tədbirində görkəmli ziyalılar, folklorşünas alimlər, ustadın sənət dostları və yetirmələri ilə yanaşı, Cənubi Azərbaycandan gələn aşıqlar iştirak edirdi.

Azərbaycan Aşıqlar Birliyinin sədri, xalq şairi Zəlimxan Yaqub ölkəmizdə sənətə və sənətkara göstərilən diqqət və qayğıdan, aşıq sənətinin inkişafı naminə həyata keçirilən məqsədyönlü işlərdən, həmçinin yubilyarın həyat və yaradıcılığından söz açaraq bildirdi ki, dövlətimizin aşıq sənətinə qayğısı aşıqlarımızı ruhlandırır: «Azərbaycan dövləti aşıq sənətinə, aşıqların yaradıcılığına yüksək qiymət verir. Təsadüfi deyil ki, bu müqəddəs sənət Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın səyi nəticəsində UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib. Bu olduqca təqdirəlayiq bir işdir. Bu həm də sənətə və sənətkara verilən qiymətin bariz nümunəsidir».

Ustad aşığın sənətindən, şəxsiyyətindən, yüksək keyfiyyətlərindən danışan Z.Yaqub bildirdi ki, sənətkar üçün 80 yaşında öz yubileyində iştirak etməkdən böyük xoşbəxtlik yoxdur:»Səksən yaşın var və sən də əyləşibsən məclisin başında, sənin yubileyini keçirirlər. Bundan böyük xoşbəxtlik yoxdur aşıq üçün, sənətkar üçün. Aşıq Mahmud Məmmədov canlı klassikdir, görkəmli aşıqdır, ustaddır. Onu mən çox böyük aşıqlarla, ustadlarla-aşıq İmran Həsənovla, Azaflı Mikayılla, aşıq Əkbər Cəfərovla bir yerdə görmüşəm. O, Göyçədə doğulub, Tovuzda yaşayıb. Saz havalarını, söz sənətini, dastanlarımızı gözəl bilir. Yaxşı adamdır, gözəl kişidir, böyük sənətkardır. Həm Göyçə mahalı, həm Tovuz eli Azərbaycan aşıq sənətinə uca insanlar bəxş edib. Onlar da aşıq sənətinin korifeyləridir. Bayaq Məhərrəm Qasımlı ilə danışıb deyirik ki, aşıq Mahmud yaxşı kişidir, qeybətdən, söz-söhbətdən uzaqdır, onunla söhbət edəndə adam yüngülləşir. Bu gün onun səhnədə belə əzəmətlə dayanmasına heyran qalıram. 80 yaşında səsi də, yaddaşı da, barmaqları da nizamdır, yerindədir. Aşıq Mahmud Dədə Qorqud yaşındadır, 80 yaşında öz yubileyini gördü».

Z.Yaqub ustada 80 illik yubileyi münasibətilə Azərbaycan Aşıqlar Birliyinin diplomunu təqdim etdi.

Sonra Zəlimxan Yaqub səhnədə öz yerini tutmaq üçün aşıq Mahmud Məmmədovu, tədbiri aparmaq üçün isə professor Qəzənfər Paşayevi səhnəyə dəvət etdi.

Professor Qəzənfər Paşayev bildirdi ki, ustad aşığın bənzərsiz sənət dünyası, zəngin yaradıcılıq axtarışları, Azərbaycan aşıq sənətinin inkişafı naminə gördüyü işlər kifayət qədərdir: «Bir neçə il əvvələ qədər aşıq sənətinə, aşıqlara o qədər də dəyər verilmirdi. Ancaq bu gün Azərbaycan hökuməti aşıq sənətinə, ustadlara böyük qiymət verir, aşıqlar müxtəlif fəxri adlara, Prezident təqaüdünə layiq görülür. Bir neçə il əvvəl xalq şairi Zəlimxan Yaqubun Aşıqlar Birliyinə sədr seçilməsi aşıq sənətinin taleyində böyük rol oynadı. İçəri Şəhərdə keçirilən Novruz bayramında Zəlimxan Yaqub möhtərəm Prezidentimiz İlham Əliyevin qarşısına müxtəlif aşıq mühitlərindən olan aşıqlarla çıxdı. Ölkə başçımızın qarşısında çıxış edən aşıqların sırasında ustad aşıq Mahmud Məmmədov da var idi. Aşıq Mahmud böyük sənətkar olmaqla yanaşı, həm də bütöv şəxsiyyətdir. Şəxsiyyətinin bütöv olması onu xalqa, elə sevdirib. Görün bu məclisə nə qədər adam gəlib, zal doludur».

Professor Məhərrəm Qasımlı isə bildirdi ki, Mahmud Məmmədov böyük aşıqdır və onun saysız yetirmələri, şəyirdləri var: «Aşıq Mahmuda bütün yüksək keyfiyyətlərdən Tanrı səxavətlə pay verib. Belə sənətkarlar yüz illərdən bir yetişir. Biz onun timsalında böyük bir dastançı aşığı görürük. Aşıq Hüseyn Saraclı, aşıq Məhəmməd Çovdaroğlu kimi dastançı aşıqlarımızı itirdik, qədirlərini bilmədik. Aşıq Mahmud «Abbas və Gülgəz» dastanını danışmaqla da tarixdə qaldı. O vaxt bu dastan-film çəkiləndə çox fikir mübadiləsi aparıldı və aşıq Mahmudun üzərində dayanıldı. Baxmayaraq həmin vaxt aşıq Murad Niyazlı sağ idi, amma səhhəti ilə bağlı problemi vardı. O da məsləhət gördü ki, bu dastanı aşıq Mahmud danışsın».

Tədbirdə ustadın ifasında «Abbas və Gülgəz» dastanından parçalar təqdim edildi. Aşıq Gülarə Azaflı, aşıq Nəbi Nağıyev və aşıq Nazim Quliyev, aşıq Qələndər Zeynalov və aşıq Altay Məmmədli (qoşa çıxış edirdi aşıqlar), aşıq Ulduz Sönməz, aşıq Solmaz Kosayeva, ustadın şəyirdi aşıq Cahangir Quliyev, aşıq Şəhriyar Kərimov və aşıq Elməddin Məmmədli, Aşıq Səlcuq Şahbazi, aşıq Elçin Xaliqoğlu və başqaları ustadın yubileyini saz-sözlə təbrik etdilər.

Sonda ustad aşıq sazının zilini zil, bəmini bəm, sinəsi üstə müstəkəm eləyib səhnədə gərdiş etdi. 80 yaşlı ustad aşıq tamaşaçıları qarşısında möhtəşəm çıxış etdi və «Aşıq Ələsgər və Dəli Alı» dastançasını söylədi. İnanın, səs də o səs idi, barmaqlar da həminki idi... Heç nə dəyişməyib, sadəcə yaşının üstünə yaş gəlib ustadın.

Uca zirvələrə qar yağar ustad! Həmişə zirvə olmusunuz, o zirvədə yaşamaq, məskən salmaq yaraşır sizə! Yüz illiyinizdə görüşmək ümidi ilə 80 yaşınız mübarək!

***İradə SARIYEVA***

**Hörmətli oxucular!**

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı olan

**"Tovuz"**

qəzetinə 2015-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir. Qəzetin yarım illik abunə qiyməti 20 manatdır. Qəzetə "Kapitalbank"ın Tovuz filialında abunə yazılmaq olar.

**BAŞ REDAKTOR**
**Çingiz Qəribli**

**Ünvanımız:**
*Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,*
*Telefon: 31-5-35-23*
*tovuz.1929@mail.ru*

*Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*
*Sifariş 101. Tiraj: 1300.*